# "Vətən, bağışla bizi"

## (M.Qoçuoğlunun kitabı haqqında söz)

**Murad Qoçuoğlu ilə məni rəhmətlik yazıçı-jurnalist Abbas Qaraoğlu tanış etmişdi. Sadə, çox təvazökar, necə deyərlər, danışdırmasan danışmayan bir adam kimi tanıyıram. Ancaq "Bir az gecikəndə" adlı kitabının çapını eşidəndə başa düşdüm ki, mən aysberqin üst qatını görmüşəm, altından xəbərim yoxmuş; Murad müəllim cəmiyyətin dərin qatlarından xəbərdar olan çox həssas söz adamı imiş və ürəyincə olan mövzu barədə söhbət düşəndə onu susdurmaq çox çətindir.**

Murad müəllim həyata milli və bəşəri duyğulardan yanaşır, ədalətsizliklə barışa bilmir, xalqımızın indiki məğlub vəziyyəti (buna çox vaxt "müvəqqəti" təyini də əlavə edirik, ancaq bu "müvəqqəti"nin bir müddəti yoxdur?!) onun bütün varlığını tarıma çəkib. Ona görə də 2015-ci ildə 200 səhifəyə yaxın şeir kitabını görəndə təəccüblənmədim; belə narahat ürəyin sahibi kədərini kövrək misralara hopdurmaya bilməz. Kitabın adı da oxucuya çox şey deyir. Murad hələ rayonda müxbir işləyəndə saf, ülvi duyğuları, əxlaqi təmizliyi tərənnüm edən şeirlərlə mətbuatda görünərdi. Onun sözə, bədii yaradıcılığa tələbkarlığındandır ki, 20-30 il keçəndən sonra ilk kitabının çapını gerçəkləşdirib və bir oxucu kimi deyərdim ki, çox yaxşı da edib. Kitaba istedadlı söz sərrafları - yazıçı, fil. üzrə fəlsəfə doktoru Səyyad Aran və istedadlı şair, nasir, publisist Qəşəm Nəcəfzadə çox səmimi, xeyirxahlıq duyğuları ilə dolu ön söz yazmışlar. Xüsusilə Qəşəm müəllimin geniş filoloji təhlili Murad Qoçuoğlunun yaradıcılığına sonsuz məhəbbətdən xəbər verir. Məni bu yazını gerçəkləşdirməyə sövq edən Muradın o sakit, təvazölü xarakteri ilə şeirlərindəki sərtlik, tələbkarlıq, insan əməlinə tənqidi yanaşmanın təzad yaratmasıdır. Az qala iki aydan bəri yazı masamın üstündə olan kitabın, demək olar, hər səhifəsi qısa qeydlər, nida, sual, müsbət, bəzən mənfi işarələri ilə, düz və dalğalı xətlərlə doludur. Muradın şeirlərinin əsas mövzusu dünyanın, bəşəriyyətin naqisliklərinə, insanın mənəvi aşınmasına acı təəssüfdən ibarətdir. "Bir az gecikəndə" kitabını uzun zaman çək-çevir edəndən sonra belə qənaətə gəldim ki, bu şeirlər müəllifinə çox oxşayır - abırlı, həyalı, utancaq, bəzən sərt, bəzən yumşaq, ancaq hər iki halda həzinliyini, zərifliyini saxlayan bu bədii parçalar ümumbəşəri, ümummilli dərdlərin, qüsurların özünəməxsus eyhamlarla, orijinal metafora və epitetlərlə oxucunun beyninə, idrakına, düşüncəsinə yeridilir, ondan fəal münasibət gözləyir. Bütün bu keyfiyyətləri ilə poetik əhvali-ruhiyyəyə xələl gətirməyən müəllif özünü "gözə soxmur", əldə etdiyi yaradıcılıq uğuru ilə öyünmür. Bu da ona imkan verir ki, oxucuya demək istədikləri hədəfə birbaşa dəysin, onu "narahat etsin", dərindən düşündürsün. Murad müəllimin bu təvazökarlıq duyğusunu onun ayrıca bir şeirinin nümunəsində bir az geniş qabartmaq istəyirəm.

Kitabın son səhifəsindəki "Hələ gözlərimə baxmayın mənim" şeiri Muradın bir vətəndaş, bir söz adamı kimi ciddiliyinə, yaradıcılığına, bir sözlə, şəxsi məsuliyyətinə necə həssaslıqla yanaşdığını göstərir. Artıq yetkinlik yaşına çatmış, həyatda çox savablara qol qoymuş (Murad müəllim ciddi bir qəzetin baş redaktorudur) Hacı hələ də elədiklərindən razı deyil, hələ də Vətən üçün, insanlıq üçün yetərincə iş görmədiyini etiraf edir, özü haqqında yüksək fikrə düşməkdən ehtiyatlanır:

**Hələ gözlərimə baxmayın mənim;**
**Birdən çaşarsınız, yanılarsınız.**
**Hələ gözlərimə baxmayın mənim;**
**Dünya var, mən varam, Siz də varsınız...**

Nə gözəl etiraf, nə dərin məsuliyyət hissi... Vətən qarşısında, insanlıq qarşısında... Məncə, elə bu xarakterindəndir ki, Muradın 150-ə yaxın şeirinin toplandığı bu kitabda kifayət qədər uğurlu, günümüzün tələblərinə cavab verən, bədiilik baxımından bəyənilən şeirlər vardır. Onların əksəriyyətində şairin həyata, Allahın pay verdiyi ömrə, gördüyü işə... olan tələbkarlığı, məsuliyyəti, ehtiyatlılığı nəzərə çatdırılır, diqqət mərkəzində saxlanılır. Məncə, bu mənada onun "Məni günahlardan qoru, Allahım" şeiri ayrıca qeyd olunmalıdır. Kitabdakı şeirlərin həcmcə ən uzunu olan bu şeir Muradın həqiqi insan, vətəndaş, şəxsiyyət, ziyalı obrazını yaradır. Başdan ayağa günahlardan qaçmaq, dünyanı, cəmiyyəti pisliklərdən qorumaq, ən adi səhvlərə görə də xəcalət çəkməkdən qorxmamaq arzusu ilə Tanrıya üz tutan şairin qarşısına qoyduğu məqsəd aydındır; günah çoxdur, heç olmasa, "dərdə çevrilən təzə günahlardan" qorunaq:

**Mənim öz günahım özümə bəsdir -**
**Özümə bəllidir hər bir günahım;**
**Hər təzə günahım bir təzə dərddir,**
**Məni günahlardan qoru, Allahım.**

Qanmaz əli ilə sınan budağın "qarışqa yükünü çəkmək" arzusunda olan lirik qəhrəman (əlbəttə, bu, Muradın özüdür) yenə özünü günahkar bilir:

**Yetim harayına sınan budağın**
**Tək bircə qarışqa yükünü çəkim!**
**Məni günahlardan qoru, Allahım;**
**Bir günah yerinə min savab əkim!**

Ümumiyyətlə, bu şeiri XXI əsr insanının qarşısında qoyulan əxlaqi-mənəvi tələblərin lirik, incə hisslərlə və kifayət qədər bədii yolla dolğun ifadəsi hesab etmək olar. Düzdür, kitabdakı şeirlər mövzu-məzmun baxımından bölmələrə ayrılmayıb, ancaq hiss olunur ki, müəllif və redaktor bəzi daha vacib bilinən məzmuna malik şeirləri əvvələ salmağı lazım biliblər. Məsələn, vətən sevgisini tərənnüm edən "Vətən ürəyimdən başlanır mənim" şeiri ilk səhifəyə salınıb və düz də edilib. Ədəbiyyatımızda Vətən haqqında laylay qədər şirin, bayatı qədər dərin, nağıl qədər səmimi misralar, bəndlər, şeirlər var. A.Səhhət, C.Cabbarlı, S.Vurğun, M.Araz... bu şeirlərin müəllifləri Vətəni vətən olduğuna görə, qədim tarixi, gözəl təbiətinə görə tərənnüm edirlər, Murad isə Vətənin dərdlərini öz ürəyinə saldığına görə, qəm, kədər, həsrət duyğulu ürəyinin ağrısını Vətən məhəbbətinə qatarq təsvir-tərənnüm etdiyinə görə daha real, daha işgüzar, daha konkret məzmun yaradır. Yəni o, torpağımızın, ölkəmizin tarixi ilə indiki durumunu, gələcəyini göz önünə gətirib narahat övlad kimi öz daxili hisslərini qələmə alır:

**Bir ovuc torpağam bu gördüyün mən;**
**Səpmişəm arzumu torpağın üstə.**
**Məndən umacağın nədirsə, qardaş,**
**Mən kiməm, sən onu torpaqdan istə.**

Şair özünü vətənin bir ovuc torpağı bilir (Sonda belə olacaq!) və hər kəsin istədiyinin Vətən torpağında bitəcəyini real sayır. O, belə qənaətə gəlir ki, ümid bircə toxumu da bitirər, daşda, qayada olsa da, təki onu əkənin ürəyi sevinci, kədəri bir parça Vətən torpağı ola bilsin:

**Ümidlə əkdinmi bircə toxumu;**
**Daşda, qayada da bitərmiş, demə!**
**Sevinci, kədəri, qayğılarıyla**
**Bir parça ürəyim vətənmiş, demə!**

Səkkiz bəndlik bu şeirin hər misrasında Vətən, Torpaq sevgisi, sona çatmayan arzu nisgili oxucunu dərin-dərin düşüncələrə daldırır. Ürəyində "...Arazboyu uzanan həsrət, Xudafərin harayı yatan" şairin "Bir gün (onun) torpağına qarışmağı var", ona görə ki, "Vətən onun ürəyindən başlanır":

**Bu da belə ömür, belə taledir;**
**Doğmalar yad olar, yadlarsa doğma!**
**Məndən kimliyimi soruşan naşı,**
**Sərhəd dirəklərin gözümə soxma;**
**Vətən ürəyimdən başlanır mənim!**

Bəli, Vətəni yarı bölən dirəklər bütöv Vətən məhəbbətini bölə bilməz, axı o, bizim ürəyimizdədir! Gözəl məntiqdir!!!

Muradın əksər şeirlərini bu cür mənalandırmaq olar. Onun "Vətən, bağışla, bizi" adlı şeirini adam həyəcansız oxuya bilmir. Məqsədli, ya məqsədsiz Vətən qarşısında günahkar olanlar Vətən borcunu dərk etməlidir, onun önündə baş əyməlidir:

**...Qonşu harayına yetməyənlərin,**
**Xeyrinə, şərinə getməyənlərin,**
**Ataya oğulluq etməyənlərin**
**Vətənə oğulluq keçir könlündən...**
**Vətən, bağışla bizi...**

Özümüzə əziyyət verməyirik, Vətəni əldən veririk, sonra da "Vətən, Vətən" deyirik. Başımıza gələn fəlakətlərin çoxunun səbəbkarı özümüz olduğundan yenə Vətən qarşısında günahkar oluruq... Görün, Murad Vətən anlayışını necə şəxsləndirib onun qarşısında diz çöküb yalvarır ("biz" mənasında)!

**İzn ver gözünün yaşına dönüm,**
**Sənin torpağına, daşına dönüm:**
**Günah bizimkidir, səbrin böyükdür -**
**Sən ki anamızsan, başına dönüm!...**
**Vətən, bağışla bizi...**

Düşüncəli, ciddi adamlar arasında belə ifadə var: "Dəlisən, sən də başqaları kimi yaşa, yəni özünü düşün!.." Muradın "Mən gündə yüz dəfə dəli oluram" şeiri həmin ifadənin ("özünü düşün") adamı dəli edə biləcəyinə cavabdır: yəni düzə əyri de, heçə var de, pisə yaxşı (hətta "əla") de, təki işin getsin. Onda bəs ədalət, sədaqət, həqiqət harda qaldı?!

**Bəxti ağlından yüyrək oğlanlar**
**Ağıllı yerinə qabağa keçir.**
**Sonra mənim kimi neçə dəlinin**
**Oturub sakitcə qanını içir...**

Bu misraların həm də bədii gücü ondadır ki, "ağıllı", "dəli" ifadələri öz müstəqim mənasında işlənmir. Əslində "ağıllı"lar dəlilərdir, "dəli"lər ağıllılar. "Sağ olun" alqışı da tamamilə əks məna ifadə edir. Məncə, bu şeirin daha dərin filoloji araşdırmaya ehtiyacı var.

"Bir az gecikəndə" kitabında şəhər təbiətini nəzmə çəkən şeirlər də var: "Bu gecə ruhları bağışladılar" onlardan biridir. Burada, həqiqətən, Muradın ilham mələyi çiyninə qonub. Şeirin hər misrasında incə hisslərin təsiri altına düşürəm: "torpağın üstünə ələnən qar" "budaqlar soyuqdan donmasın deyə" onları bələyir.

**Səmadan ağappaq dənəcikləri**
**Torpağın üstünə ələyirdilər,**
**Elə bil soyuqdan donmasın deyə,**
**Çılpaq budaqları bələyibdilər.**

"Bir az gecikəndə" kitabındakı şeirlərin çoxu oxucuya insaf, ədalət, rəhm hisslərini bədii ümumiləşdirmə, real həyatı faktlar fonunda aşılayır. Məsələn, "Ana fəryadı" şeirində şair balasını itirmiş quşun vəziyyətinə acıyır, onun dərdini azalda bilmədiyi üçün acı təəssüf hissi keçirir:

**Bir quş ölümünə ağrıyır ürək;**
**Günlərlə özünə gəlməyir bəzən.**
**Balasın itirmiş anaydı o quş;**
**Ana fəryadıdı məni göynədən!**

Günahsız insanları qətlə yetirib üstündə eybəcər hərəkətlər edənlərin yaşadığı indiki zamanda Azərbaycan şairi quşun ana fəryadına dözə bilmir!!

Ürəyimdən Muradın oxşuma gələn şeirləri haqqında heç olmasa 1-2 cümlə yazmaq keçir, ancaq qəzetçi qardaşlarımızın da vəziyyətini nəzərə almaq lazımdı. Ona görə çox səmimi olaraq deyirəm ki, mənim şəxsiyyətinə dərin hörmət bəslədiyim əziz qardaşım, istedadlı şair Murad Qoçuoğlunun ilk kitabında bədii sözün qiymətini ucaldan, oxucuya çağdaş narahat dünyamız haqqında çox şey deyən şeirlər toplanıb. Bircə arzumuz odur ki, Murad müəllim gələcək kitablarında şeirləri mövzular üzrə yerləşdirsin, bir də şeirlərin sonunda yazılma tarixini göstərsin. Uğur olsun, qardaşım!

**Akif Miriyev,**
**ATU-nun kafedra müdiri**